# Müstəqil dövlətimizi yeni zirvələrə aparan Lider



**Ümummilli lider Heydər Əliyev dərin zəkasını, şüurlu həyatını və böyük enerjisini xalqımızın xoşbəxtliyinə həsr etmişdir. Azərbaycan ikinci dəfə müstəqilliyini elan etdiyi ilk illərdə həm siyasi vəziyyət gərginləşmişdi, həm də əhalinin sosial durumu ağırlaşmışdı. Elə bu zaman ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq, xalqımızın səsinə səs vermək, ölkədə baş vermiş sosial-iqtisadi və siyasi tənəzzülü aradan qaldırmaq üçün Heydər Əliyev şəxsiyyətinə, onun bilik və bacarığına ehtiyac duyuldu. Birmənalı olaraq, Azərbaycanın 1990-cı illərdən sonrakı inkişafı ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi 15 iyun 1993-cü ildə Milli Qurtuluş Günündən başladı. Görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin 1993-cü ilin böhranlı aylarında gerçəkləşdirdiyi xilaskarlıq missiyası müstəqillik aktı ilə, sadəcə, elan olunmuş yeni suveren respublikanı qoruyub saxlamaq və möhkəmləndirmək, sonrakı böyük gələcəyin zəruri təməllərini yaratmaq baxımından ölkənin taleyində çox önəmli rol oynamışdır.**

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi böyük strateji hədəfləri uğurla reallaşdıraraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizi daha da uca mərhələlərə çatdırmışdır. Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üzrə qazanılmış böyük nailiyyətlər ölkəmizin müstəqillik dövrü inkişafının İlham Əliyev zirvələri olaraq xalqımızı daim yeni qələbələrə doğru istiqamətləndirir.

Siyasi hakimiyyətə gəldiyi 2003-cü il müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin həyatında məsuliyyətli bir dövr idi. Bir tərəfdən, hakimiyyətdə dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin qazandığı böyük nüfuz qorunub saxlanmalı, digər tərəfdən isə Azərbaycanı bütün sahələrdə inkişafı davam etdirmək vəzifəsi həyata keçirilməli və beynəlxalq aləmdə mövqelər daha da möhkəmləndirilməli idi. Xüsusən, ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının cavan Prezidenti haqqındakı "Mən ona özüm qədər inanıram" bəyanı İlham Əliyevin əzmini daha da artırmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərliyi dövründə böyük sınaqlardan çıxmış, xalqın ürəkdən inandığı və dəstəklədiyi əbədi lideri Heydər Əliyev yolunu öz fəaliyyətinin əsas strategiyası kimi qəbul etmək, siyasi hakimiyyətdə varisliyi diqqət mərkəzinə çəkmək və bu kursu yaradıcı şəkildə davam etdirməklə cəmiyyətin, demək olar ki, bütün təbəqələrinin yüksək etimadını qazanmışdır. Atılmış ilk addımlar Prezident İlham Əliyevin özünəqədərki müddətdə ölkə üzrə aparılmış islahatların yaradıcı şəkildə davam etdirilməsi, başlanmış bütün işlərin, icrada olan mühüm layihələrin uğurla həyata keçirilməsi və tamamlanması istiqamətindəki düşünülərək qətiyyətlə dəstəklənməsi demək idi. Prezident İlham Əliyevin tutduğu siyasi varislik yolunun nə qədər uzaqgörən bir mövqe olduğunu aydın surətdə dərk etmək mümkündür. Məhz həmin, ulu öndərin müəyyənləşdirdiyi strategiyanın nəticəsində, ilk növbədə, Azərbaycan Respublikasında əvvəlcədən başlanılmış böyük layihələr məqsədyönlü şəkildə davam etdirilir.

Dahi strateq Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" kimi dünyaya səs salmış beynəlxalq saziş nəticəsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neftqaz kəmərlərinin uğurla başa çatdırılması, istifadəyə verilməsi müstəqil Azərbaycan dövlətinin gələcək taleyində müstəsna dərəcədə mühüm rol oynamışdır. Bundan başqa, ölkə miqyasında başlanmış torpaq islahatların məqsədyönlü şəkildə tamamlanması və respublikada bazar iqtisadiyyatına əsaslanan yeni idarəetmə və təsərrüfat münasibətlərinin formalaşması da xalqımızı və ölkəmizi inkişafın böyük magistrallarına çıxarmağa uğurla xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mühüm və məsul vəzifələri siyasi hakimiyyətinin birinci 5 ili ərzində həyata keçirərək tamamlamış, müstəqil dövlətimizin dayaqlarını möhkəmləndirməyə nail olmuşdur. Bu mənada siyasi hakimiyyətin birinci beşilliyi İlham Əliyev üçün yeni təməllər yaratmaq və strategiyanı daha da inkişaf etdirmək dövrü olmuşdur.

Prezident dövlət idarəetmə siyasətində yeni təfəkkürü təmsil edən novator bir lider kimi idarəetməyə başladığı andan həm də paralel olaraq ən müasir istiqamətlərdə islahatlara start vermişdir. Dövlət rəhbərinin müəyyən etdiyi yeni istiqamətlər həyatın daxili təbii məntiqinin, ölkə reallıqlarının və mövcud dünya təcrübəsinin nəzərə alınması əsasında formalaşdırıldığı üçün bütün sahələrdə gerçək davamlı inkişafa geniş yol açmışdır.

Dövlət başçısı kimi İlham Əliyevin siyasi hakimiyyətə gəldiyi ilk illərdən başladığı və uğurla davam etməkdə olan regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının həyati zərurətdən doğan və ölkə üçün xüsusi əhəmiyyətə malik bir strategiya kimi həyata keçirilməsi innovativ inkişafda hərəkətverici qüvvə rolunu yerinə yetirmişdir. Azərbaycan rayonlarında icra edilən genişmiqyaslı infrastruktur layihələri, təsərrüfat proqramları, möhtəşəm sosial-mədəni quruculuq işləri ölkəmizin simasını tamamilə dəyişdirmişdir. Regionlarda aqrar sektorla yerli sənayeləşmənin birinin digərini tamamlaması, əhalinin ərzaq tələbatının ödənilməsi ilə yanaşı, həm də xammal və emal proseslərinin daha səmərəli şəkildə tənzimlənməsi ölkədə hərtərəfli və ahəngdar inkişafın təmin edilməsini gerçəkləşdirmişdir.

Bu gün nəinki Müstəqil Dövlətlər Birliyi ölkələri miqyasında, hətta əksər Avropa dövlətlərində Azərbaycandakı səviyyədə regionların inkişafını müşahidə etmək çətindir. İndi ilk növbədə, rayonların təsərrüfat imkanları genişlənmiş və bazara çıxarılan məhsulların həcmi və keyfiyyəti artmışdır. Hazırda aparılan məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycanın regionları da böyük ixrac imkanlarına malik münbit bir bazar funksiyasını daşımaqdadır. Respublikamızın paytaxtı Bakı şəhərini bölgələrlə əlaqələndirən və dünyaya açılan avtomobil yolları dünya standartı səviyyəsindədir.

Son illərdə Prezident İlham Əliyevin irəli sürdüyü irimiqyaslı kənd təsərrüfatı proqramlarının — çayçılıq, pambıqçılıq, çəltikçilik, ipəkçilik, tütünçülük və s. layihələrinin həyata keçirilməsi sahəsində əldə olunan mühüm iqtisadi nəticələr Azərbaycanın regionlarına yeni həyat gətirmişdir.

Azərbaycanda sahibkarlığın inkişafı və təşəkkül tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz özəl sektorun inkişafına daim diqqət göstərib və ölkənin gələcək iqtisadi tərəqqisini məhz özəl sektorla bağlı olduğunu vurğulayıb: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".

Ölkəmizin sürətli inkişafının prioritet sahələrindən biri də turizmdir. Turizm sahəsində sahibkarlıq dövlət tərəfindən daim dəstəklənir. Turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən xidmətlərin formalaşdırılması, qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini, mövcud potensialdan istifadə imkanlarının genişləndirilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması "Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır. Şübhəsiz ki, son illər turizm sahəsində qazanılan nailiyyətlərdə bu sahədə fəaliyyət göstərən şirkətlərin, istirahət və əyləncə müəssisələrinin müstəsna rolu var. Müntəzəm olaraq regionlara səfər edən ölkə başçısı rayonlarda gedən inkişaf proseslərini, yeni layihələrin həyata keçirilməsini xüsusi vurğulayır. Cənab Prezident şimal bölgəsinə səfəri çərçivəsində Xaçmaz rayonunda da olmuşdur. "Atlant" istirahət mərkəzi ilə tanışlıq zamanı dövlət başçısı burada yaradılan şəraiti yüksək qiymətləndirərək, turizmin inkişafı üçün ölkəmizdə kifayət qədər potensialın olduğunu bildirib.

Dövlət başçısının sərəncamı ilə 2017-ci ildə ölkədə turizmin inkişafındakı xidmətlərimə görə "Tərəqqi" medalı ilə təltif olunmuşam. Bu diqqət və qayğı təsdiq edir ki, Azərbaycan sahibkarları hazırda Prezident cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşdur. İş adamları bundan ruhlanaraq qeyri-neft sektorunun inkişafında və sosial layihələrin icrasında fəallıq göstərir, bütün səylərini Azərbaycan iqtisadiyyatının möhkəmlənməsinə, ölkəmizin daha da qüdrətlənməsinə səfərbər edirlər.

Müstəqillik dövründə nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi sahəsində də ölkəmiz çox böyük uğurlara imza atmışdır. Dövlət başçısı İlham Əliyevin adı və yorulmaz fəaliyyəti ilə birbaşa bağlı olan Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanı birləşdirən çox mühüm nəqliyyat qovşağıdır. Bakı-Tbilisi-Qars marşrutu beynəlxalq miqyasda Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində meydana çıxmış "Dəmir İpək yolu" kimi qəbul olunur. Bu, tarixi İpək yolu marşrutuna müstəqil Azərbaycan Respublikasının möhtəşəm töhfəsidir. BTQ-nin Türkiyə Cümhuriyyətinin Qars şəhərindən Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qədər uzadılması ilə bu böyük magistral İran İslam Respublikasının dəmir yollarına qoşularaq ətrafdakı Cənub Şərqi Asiya ölkələrini də əhatə edə biləcəkdir. Bakı-Tbilisi-Qars dəmir İpək yolunu Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri böyük müvəffəqiyyətlə davam və inkişaf etdirir, şaxələndirir. Bu gün Azərbaycan beynəlxalq tranzit yollarının qovşağı olan mühüm ölkə missiyasını həyata keçirir. Böyük magistral yollar ölkəmizdə güclü iqtisadiyyata geniş imkan açmaqla bərabər, turizmin, elmin və mədəniyyətlərarası əlaqələrin inkişafı üçün də müstəsna şərait yaradır. Hava nəqliyyatında tikilən aeroportlar və gəmiçilik sahəsində salınan limanlar, istifadəyə verilən gəmiqayırma zavodları, bu zəmində Ələt İqtisadi Zonasının yaradılması respublikamızın daha sürətli inkişafına təkan verir.

Son illərdə NATO və Avropa Şurası kimi iki beynəlxalq təşkilatın, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qətnamələr qəbul etmələri Prezident İlham Əliyevin apardığı məqsədyönlü və ardıcıl xarici siyasətin gəlib çatdığı mühüm nöqtədir.

Bu gün ölkəmiz idman dövləti kimi də nüfuz qazanıb. Azərbaycan Respublikasının yüksək səviyyədə və çox mütəşəkkil şəkildə ilk Avropa Oyunlarını keçirməsi, idmançılarımızın böyük uğurlar qazanması bu sahədə qazanılan uğurlu zirvələrdir. IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək və idmanın əsas növləri üzrə dünya çempionu adı qazanmaq, bütün ölkələrdən çox qızıl medal sahibi olmaq da bu nailiyyətlərdən biridir.

Azərbaycan müdafiə qüdrətini daim artırır. Ordumuzun 2016-cı ilin Aprel döyüşlərindəki böyük qələbəsi, əlahiddə Azərbaycan Ordusunun 2018-ci ilin uğurlu əməliyyatları nəticəsində Naxçıvan Muxtar Respublikasındakı 11 min hektarlıq ərazini işğaldan azad etməsi və Ermənistan üçün strateji əhəmiyyətə malik olan İrəvan-Laçın magistral yoluna nəzarəti ələ keçirməsi yeni tarixi epoxanın çox mühüm hərbi-siyasi uğurudur. Əsgərimizin düşmən sərhədində yerləşən, dəniz səviyyəsindən 1800 metrlik yüksəkliyə malik olan Şərur rayonu ərazisindəki Qızılqayanın ən uca nöqtəsinə Azərbaycan bayrağını taxması hərb tariximizin böyük hadisəsidir.

Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində yenidən insanların məskən salması, Naxçıvan Muxtar Respublikasındakı Günnüt kəndinin düşmən tapdağından xilas edilməsi Dağlıq Qarabağın sabahına nikbin baxmağa əsas verir. Bu real hadisələr bir daha göstərir ki, hansı yolla olur-olsun Azərbaycan dövlətinin işğal edilmiş ərazilərini geri qaytaracağı, məcburi köçkünlərin doğma torpaqlarına qayıdacağı gün çox da uzaqda deyildir.

Prezident İlham Əliyevin böyük məsuliyyət və məharətlə apardığı hərb və sülh siyasətinin real nəticələri Azərbaycanın haqq işinin, ədalətli mübarizəsinin qalib gələcəyinə böyük ümid yaradır. Xalqımız inanır ki, Dağlıq Qarabağ münaqişəsi məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə qələbə ilə başa çatdırılacaqdır.

Müstəqil Azərbaycan Respublikası müasir inkişafın İlham Əliyev zirvələri dövrünü yaşayır. Dünya liderləri sırasında özünəməxsus yeri və mövqeyi olan görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızı və ölkəmizi böyük bacarıqla, qətiyyətlə, uzaqgörənliklə qələbəyə doğru aparmaqda davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprelin 11-də yenidən ölkəmizin rəhbəri seçilməsi görülən işlərin, həyata keçirilən tədbirlərin, nailiyyətlərin qazanılması nəticəsində irəliyə atılan tarixi addımdır. Müstəqil Azərbaycan dövlətini və xalqımızı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha neçə-neçə uğurlu illər, möhtəşəm zirvələr, işıqlı sabahlar gözləyir.

**Tahir QƏDƏSOV,**
**"Atlant" Ailəvi İstirahət və Əyləncə Mərkəzinin direktoru.**